## “Jewish Journal” qəzeti:

# “Xocalıdakı müharibə cinayətinin günahsız qurbanlarını anarkən”




ABŞ-ın Los-Ancelesdə nəşr olunan ən böyük yəhudi qəzetlərindən biri “Jewish Journal”da Azərbaycanın bu şəhərdəki baş konsulu Nəsimi Ağayevin **“Xocalıdakı müharibə cinayətinin günahsız qurbanlarını anarkən”** sərlövhəli məqaləsi dərc edilib.

Məqalədə N.Ağayev Xocalı qətliamı zamanı azərbaycanlıların məruz qaldıqları vəhşiliklərdən bəhs edərək, bu soyqırımını müasir Avropa tarixinin ən dəhşətli faciələrindən biri adlandırır. Baş konsul “Human Rights Watch” təşkilatının bu faciəni Ermənistan-Azərbaycan münaqişəsinin ən böyük qətliamı adlandırdığını bildirərək qeyd edir ki, Ermənistanın hazırkı prezidenti Serj Sarkisyan və müdafiə naziri Seyran Ohanyan Xocalı qətliamının törədilməsində birbaşa iştirak ediblər.

Diplomat vurğulayır ki, Azərbaycanın apardığı ədalət mübarizəsi nəticəsində son illərdə artıq beynəlxalq aləm bu dəhşətli hadisənin öyrənilməsinə və tanınmasına böyük maraq göstərməkdədir. Baş konsul Meksikadan Sloveniyaya, Bosniya və Herseqovinadan Peruya qədər müxtəlif ölkələrin, eləcə də ABŞ-ın onlarla ştatının Xocalı faciəsini qətiyyətlə pislədiklərini qeyd edir. Müəllif həmçinin İsrail Prezidenti Reuven Rivlinin 2015-ci ildə BMT Baş Assambleyasındakı çıxışı zamanı Xocalı soyqırımının Holokostdan sonra dünyanın qarşısını ala bilmədiyi soyqırımılarından biri olmasını qeyd etdiyini diqqətə çatdırır.

Baş konsul Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlamasına diqqət çəkərək, bir milyondan artıq azərbaycanlının öz yurd-yuvalarından didərgin salındığını qeyd edir. Diplomat Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində Azərbaycana ciddi ziyan dəyməsinə baxmayaraq, ötən illər ərzində ölkəmizin inkişaf edərək yerləşdiyi regionun ən böyük iqtisadiyyatına sahib olduğunu bildirir. Bunun müqabilində isə Ermənistanın zəiflədiyini və xarici yardımlardan asılı duruma düşərək öz suverenliyini və müstəqilliyini faktiki olaraq itirdiyini, 1991-ci illə müqayisədə əhalisinin az qala, yarısının daimi olaraq Ermənistanı tərk etdiyini vurğulayır.

N.Ağayev qeyd edir ki, Ermənistanın bu dəhşətli cinayəti hər vəchlə inkar etməsinə baxmayaraq, Azərbaycan Xocalı qurbanlarına ədalət uğrunda mübarizəsini davam etdirir. Diplomat ABŞ Konqresinin də bu ədalət mübarizəsinə qoşulmasının, xüsusi qətnamə qəbul edərək bu qətliamı pisləməsinin vacib olduğunu bildirir.

Qeyd edək ki, “Jewish Journal” qəzeti ABŞ-da internet vasitəsilə ən çox oxunan yəhudi nəşridir və onun internet versiyasının aylıq 4,5 milyon oxucusu var.